**Yasəmən Sadıqova,**
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun doktorantı,*
*Azərbaycan Milli Kitabxanasının Biblioqrafik və*
*elektron informasiya xidməti şöbəsinin böyük bblioqrafı*
*yasaman.sadiqova@gmail.com*

# AZƏRBAYCANIN MADDİ MƏDƏNİYYƏTİNİN İNFORMASİYA TƏMİNATINA İNNOVATİV YANAŞMA
## (Məruzənin tezisi)

***Xülasə:*** *Tezisdə Azərbaycan maddi-mədəniyyətinin məlumat bazasının yaradılması ideyası verilmişdir. Bu məlumat bazasının yaradılmasında əsas məqsədlər işıqlandırılmış və bazanın məntiqi modeli təqdim edilmişdir.*
***Açar sözlər:*** *Azərbaycanın maddi mədəniyyəti, məlumat bazası, arxeologiya, etnoqrafiya, informasiya təminatı*

Müasir şəraitdə heç bir müəssisə və təşkilat öz fəaliyyətini müxtəlif tərəflərdən daim təkmilləşdirmədən inkişaf etdirə bilməz. Bu baxımdan kitabxana işində innovasiyaların tətbiqi, yeni xidmət və məhsulların təqdim olunması qaçılmazdır. Innovasiya- insanın intellektual fəaliyyətinin son nəticəsi kimi dəyişikliklərə səbəb olan yüksək səmərəliliyə malik yeniliklərin tətbiqidir. Onların əsas təyinatı - kitabxanalarda yeni informasiya məhsullarının yaradılması və ya mövcud məhsul və xidmətlərin təkmilləşdirilməsi, oxucuların sorğu və tələbatlarına uyğun informasiya təminatının həyata keçirilməsidir. Artıq ənənəvi kitabxanaların iş müasir avtomatlaşdırma vasitələrindən istifadə etmək kimi proseslər daxil olmuşdur. Hal-hazırda bir çox kitabxanalarımız elmi informasiya təminatında yeni texnologiyalar tətbiq etməklə bərabər, eyni zamanda daha da irəli gedərək oxuculara qeyri-ənənəvi informasiya və mütaliə formaları hazırlayır, onların sorğularına müasir elektron vasitələrlə (e-kitab, e-jurnal, e-qəzet və s.) daha qlobal və əhatəli cavab vermək üçün məlumat bazalarından istifadə edirlər. Azərbaycan Milli Kitabxanasında Azərbaycanın görkəmli şəxsiyyətləri, şair, yazıçı, ictimai-siyasi xadimlər və başqalarının həyat və yaradıcılığı, o cümlədən əlamətdar tarixi günlər haqqında kitablar, şəkillərdən ibarət fotoalbom və videogörüntülər elektron versiyada istifadəçilərə təqdim edilir.

Cənubi Qafqazın ilk sivilizasiya mərkəzlərindən biri sayılan Azərbaycanın maddi mədəniyyəti arxeoloji, etnoqrafik, sənətşünasılq, memarlıq, kulturoloji, etnolinqvistik və s. müxtəlif aspektlərdən tədqiq olunmuşdur. Azərbaycanın maddi mədəniyyətinin mühafizəsi və tədqiqi qədər bu sahənin üzrə informasiya

təminatının müasir texnoloji proseslərlə təminatı məsələsi də olduqca aktualdır və bu aktuallığı şərtləndirən əsas amillər: yeni texnoloji dəyişikliklərin baş verdiyi dünya informasiya mühitində kitabxanaların qarşısına qoyulan vəzifələrin həyata keçirilməsi, müasir tələblərə cavab verən məlumat bazalarının yaradılması məsələsi hakimiyyət tərəfindən diqqətə alınması**. [1]**

Azərbaycanın maddi mədəniyyətinin məlumat bazasının yaradılmasında qarşıya bir sıra məqsədlər qoyulur:

- Azərbaycanın maddi mədəniyyətinin vahid informasiya bazasını yaratmaq.
- Azərbaycanın maddi mədəniyyəti (arxeologiya, etnoqrafiya) üzrə informasiya təlabatçılarına məsafədən aslı olmayaraq, 24 saat online xidmət göstərmək.
- Müvafiq sahə üzrə alim və mütəxəssislərin elmi-tədqiqat fəaliyyətində informasiya təlabatını ödəməklə tədqiqatların səmərəliliyinin və keyfiyyətinin artırılmasında yaxından iştirak etmək.
- Kitabxanaların fəaliyyətinin səmərəliliyini artırmaq.

Qarşıya qoyulan vəzifələr isə aşağıdakılardan ibarətdir:

- Məlumat bazasında Azərbaycanın maddi-mədəniyyətinə dair informasiyanın tamlığını təmin etmək.
- İnformasiya təminatının yüksək səviyyədə təşkilini təmin etmək üçün məlumat bazasında yeni informasiyanın daxil edilməsini daim nəzarətdə saxlamaq.
- Informasiya təlabatçılarının sorğularını tədqiq etmək, araşdırmaq və yeniliklər tətbiq etmək üçün qərarlar qəbul etmək.
- Əlaqədar müəssisə və təşkilatlarla (AMEA Arxeologiya və etnoqrafiya institutu, Milli Tarix muzeyi və s.) əməkdaşlıq etmək.

**Məlumat bazasının strukturu:**



Göstərilən sxemdə Azərbaycan maddi-mədəniyyətinin məlumat bazasının məntiqi modelidir. Bu modelin yaradılması üçün peşəkar mütəxəsislər, praqram təminatı və s. tələb olunur.

**Ədəbiyyat**

1. Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir //Azərbaycan. -2013.- 28 dekabr.- S.10.
2. İsmayılova Ə. Oxuculara xidmətin əsas istiqamətləri, innovativ yeniliklərin tətbiqi təcrübəsi: Azərbaycan Milli Kitabxanasının təcrübəsi əsasında /red. K.Tahirov; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Azərb. Milli Kitabxanası.– B., 2016.- 55 s.
3. Kərimov S. İnformasiya sistemləri və verilənlər bazası.- Bakı, 1999.- 209 s.
4. Müseyibli N. Azərbaycan arxeologiya elminin inkişafı və prioritet istiqamətləri //Azərbaycan.-2014.- 16 mart.- S.5.

## Инновационный подход к информационному обеспечению азербайджанской материальной культуры

***Резюме:*** *В тезисе дана идея создания электронно-информационной базы Азербайджана. В тезисе также представлена модель и освещены основные цели создания электронно-информационной базы.*
***Ключевые слова:*** *материальная культура Азербайджана, база данных, археология, этнография, информационное обеспечение*

## Innovative approach to information provision of the material culture of Azerbaijan

***Abstract:*** *In the thesis has been given the idea of creating a database of Azerbaijan's material culture. The main goals for this database have been defined and the logistics model of the database has been presented.*
***Key words:*** *The material culture of Azerbaijan, the database, archeology, ethnography, information provision*